*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* *ISSN: 2664-5432*
*Səhifə: 138-146*
https://doi.org/10.59849/2664-5432.2025.2.138

**Ayşən İSMAYILLI***

# QARABAĞ BÖLGƏSİNİN SƏNƏT, PEŞƏ, MƏŞĞULİYYƏT BİLDİRƏN LEKSİK VAHİDLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏRİ HAQQINDA

**XÜLASƏ**

Bəşər tarixi qədər qədim olan adqoyma ənənəsi təkcə insan adlarının verilməsi ilə bağlı deyil. İstənilən bölgədə kənd və şəhər adlarını müəyyən etmək üçün də adqoyma ənənəsindən istifadə edilmişdir. Yer adlarını araşdırmaq son dərəcə vacibdir. Dar bir bölgədə tanınan, ağızdan-ağıza, nəsildən-nəslə keçən mikrotoponimlərlə yanaşı, makrotoponimləri də öyrənmək toponimikanın inkişafı baxımından faydalıdır. Təəssüf ki, əsrlər boyu istifadə olunan mikrotoponimlərin müharibədən əvvəl və sonra sürətlə itməsi səbəbindən onların tədqiqində çətinliklər yaranmışdır. Müəyyən bölgənin mikrotoponimlərini kiçik coğrafi obyektlərdə (məsələn, kəndlərdə) doğulmuş və ömürləri boyu oranı tərk etməyən insanlardan yaxşı bilən yoxdur. Belə adları toplamaq və tədqiq etmək hər zaman vacib və aktualdır.

Sənət və peşə ifadə edən leksik vahidlərdən ibarət mikrotoponimlərin əmələ gəlməsində xalqın, tayfanın, nəslin, soyun, etnik qrupun maraq dairəsini, xarakterini və tipini bildirən söz əsas əlamət kimi götürülür. Həmin sözlər yerli insanların nitqində aktuallaşır, etnik perspektivlərin müəyyən edilməsində böyük rol oynayır. Bu adların bəziləri dilimizin lüğət tərkibində arxaik sayılır. Belə mikrotoponimlər dilçiliyimizdə az təhlil edilmişdir. Onları öyrənməklə xalqımızın tarixi, mədəniyyəti, dünyagörüşü, məişəti, unudulmuş adət-ənənələri, cəmiyyətin ictimai-siyasi və sosial-iqtisadi proseslərlə bağlı inkişafı haqqında məlumat da əldə etmək mümkündür. Məqalədə məhz belə adlar – sənət, peşə və məşğuliyyəti ifadə edən leksik vahidlərdən ibarət mikrotoponimlər (Arabaçılar məhəlləsi, Dəmirçilər kurqanı, Quşçular çayı) dilçilik aspektindən sistemli şəkildə araşdırılmışdır.

**Açar sözlər**: *Qarabağ, bölgə, sənət, peşə, məşğuliyyət, mikrotoponim*

Azərbaycan dilinin leksik sistemində baş verən prosesləri araşdırmaq dilimizin lüğət tərkibinin zənginləşmə prosesinin izlənilməsində mühüm rol oynayır. Toponimikada istər makrotoponimlərin, istərsə də mikrotoponimlərin yaranmasında antroponimlərdən, etnonimlərdən, toponimlərdən, zoonimlərdən, fitonimlərdən, oronimlərdən, təsviri xarakterli sözlərdən, patronimlərdən, teonimlərdən, sənət, peşə, məşğuliyyət bildirən leksik vahidlərdən istifadə oluna bilir. Qarabağ bölgəsində qeydə alınan sənət, peşə, məşğuliyyət bildirən leksik vahidlərdən əmələ gələn mikrotoponimlər spesifik əlamətlərinə əsasən fərqlənir, tərkibində daha çox -çı şəkil-

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Toponimika şöbəsi, kiçik elmi işçi.
Email:aysheaxmedova4@gmail.com

çisindən istifadə olunur. Eyni sənət və peşədən olan şəxslərin nitqində istifadə olunur. Daha çox sintetik yolla yaranır, yəni sözlərə şəkilçi artırılmaqla çoxalır.

Elmira Əhmədova yazır: "belə ki, antroponimik etnonimlərin yaradılmasında qəbilə, tayfa, nəsil, tirə və ya tirə birliyinin başçısını adı, soyadı, ləqəbi və ya titulundan istifadə olunursa, topoetnonimlərin düzəldilməsində şəxsin ilkin mənsub olduğu yerin adından, etnoetnonimlərin formalaşdırılmasında isə ayrıldığı ilk tayfa, nəsil, tirə adından istifadə edilir. Bu qrup etonimlərin yaradılmasında isə etnik qrup başçısının və ya üzvlərindən bir çoxunun sənət, peşə, məşğuliyyət növünü göstərən söz əsas əlamət kimi qəbul edilir" [Əhmədova, 2017: s.102]. Bu isə müxtəlif peşə, sənət sahələri ola bilər.

Əzizxan Tanrıverdi hesab edir ki, "çı vasitəsilə əsasən peşə, sənət, vəzifə, rütbə, məşğuliyyət və s. bildirən isimlər düzəlir: sığıtçı – ağıçı, tamğaçı – möhürdar (Orxon-Yenisey abidələri); təmürçü – dəmirçi, avçı – ovçu (M.Kaşğari "Divan"ı); Surnaçıları qovdı, nəqaraçuları qovdı, ilqıçıları öldirdi ("Kitab"); Günü ayi gətürdi çərxə rüxün, Ey oyunçu qəmər, Xoş oynarsan (Nəsimi); Girən çü dilənçi hər qapıdan. Mən sənciləyin yalançı sorman. El qarət edən talançı sorman (Xətai); Qəbrimdə çu sorğuçu görə rəhm eyləyəsidir (Kişvəri)" [Tanrıverdi, 2017: s.213]. Göründüyü kimi, bu şəkilçiyə arxaikləşən sözlərin tərkibində də rast gəlinir.

Peşə-sənət leksikası haqqında Həsrət Həsənov belə yazır: "Peşə, işi, sənəti, istehsalat fəaliyyəti, ixtisası ilə əlaqədar birləşən kollektivin nitqində işlədilən sözlərə peşə-sənət leksikası deyilir. Bunlar xüsusi məfhum, əmək alətini və ya məhsulunu, istehsalın əmək prosesini ifadə edir. Ona görə də, onları bəzən xüsusi sözlər və ya terminlər adlandırırlar" [Həsənov, 2005: s.302]. Həsrət Həsənovun fikrinə istinad edərək qeyd edə bilərik ki, bu leksik vahidlər əsasında əmələ gələn mikrotoponimlərin əsas cəhəti də apelyativ leksikaya yaxın olması və müxtəlif sənət, peşə, ixtisas sahələrinə aid olan terminlərdən istifadə olunmasıdır.

Buludxan Xəlilov hesab edir ki, "peşə-sənət sözlərinin bir qismi isə xalqın həyatının, məişətinin, mədəni səviyyəsinin inkişafı ilə bağlı olaraq dilin lüğət tərkibində köhnəlir. Bu zaman, təbii ki, elmi-texniki tərəqqinin rolu sayəsində peşə-sənət sözləri dəyişir. Xalqın məişətinə, həyatına müasir elmi-texniki tərəqqinin tələblərinə uyğun peşə-sənət sahələri daxil olur. Müasir elmi-texniki tərəqqi ilə uyuşmayan peşə-sənət və ona aid olan sözlər öz ifadə imkanlarını itirir və beləliklə, köhnəlir, tarixizmlər cərgəsinə daxil olur" [Xəlilov, 2008: s.130]. Buludxan Xəlilovun mülahizəsinə əsasən söyləyə bilərik ki, bəzi leksik vahidlər dilimizin lüğət tərkibindən ya tamamilə çıxır, ya da yenisi ilə əvəz olunur.

Hüseyn Əsgərovun fikrincə, "peşə-sənət leksikası hər hansı konkret bir cəmiyyətdəki əmək bölgüsünün formalarını özündə əks etdirir. Peşə-sənət leksikasında bu və ya digər peşənin tarixi də öz əksini tapır. Deməli, bu leksikanın formalaşması – bu dil təzahürü təkcə sosial təzahür forması kimi deyil, həm də tarixi təzahür faktı kimi də araşdırıla bilər. Başqa sözlə desək, peşə-sənət leksikası xalqın keçib gəldiyi tarixi özündə əks etdirir. Bu baxımdan peşə-sənət leksikası ilə ümumişlək leksika arasında sərhəd çəkmək mümkün deyildir. Hər hansı peşəyə

(məsələn, dəmirçilik, zərgərlik, xalçaçılıq, toxuculuq, dülgərlik) aid leksika içərisində ümumxalq dilinin ümumişlək leksikasının müəyyən qismi ya olduğu kimi, ya da müəyyən semantik dəyişikliklə işlənə bilər. Bu leksikanın tərkibində məhəlli dialektizmlərə və arxaik sözlərə də rast gəlmək mümkündür, çünki peşə-sənət leksikası yalnız müəyyən qrupun maraqlarına xidmət edir və həmin tələbatı ödəyir" [Əsgərov, 2008: s.16-17].

Qarabağ bölgəsində rast gəlinən sənət, peşə, məşğuliyyət bildirən leksik vahidlərdən əmələ gələn mikrotoponimlərə bunları aid etmək olar: İlxıçı qobusu (Ağdam rayonu); Qatırçı yolu, Quşçular çayı, Qazançılı məhəlləsi, Dəlləkli məhəlləsi (Şuşa rayonu); Quşçular çayı (Xocalı rayonu); Dəmirçi dərəsi (Xocavənd rayonu); Qaradəmirçi məhləsi, Dilənçilər məhləsi, Şatırlı məhləsi (Bərdə rayonu); Dəmirçilər kurqanları (Tərtər rayonu) və s. Sakinlərin məşğuliyyəti ilə bağlı coğrafi adlar çox yayılmışdır. Bu şəkildə əmələ gələn mikrotoponimlərin bəzilərinin etimoloji təhlilinə fikir verək:

**Quşçular çayı.** Xocalı rayonunda qeydə alınan çaydır. Eyniadlı tayfa ilə bağlı olaraq yaranan mikrotoponimdir. Bu tayfalar qədim zamanlarda Azərbaycan ərazisində yaşayarkən bir çox yer-yurd adlarında öz izlərini qoymuşlar: Quşçu Yenicə (Göyçay qəzası), Köhnə Quşçu, Yuxarı Quşçu, Aşağı Quşçu (Quba qəzası), Quşçu (Şamaxı qəzası), Quşlar (Ağdaş qəzası), Quşlar (Cavanşir qəzası), Quşçu (Qazax qəzası), Quşçu Bilək, Quşçu, Quşçu Təzəkənd (Zəngəzur qəzası), Quşlar (Cəbrayıl qəzası), Quşlar və Quşoba (Şuşa qəzası). Göründüyü kimi tayfanın yayılma arealı geniş olmuşdur.

Afad Qurbanova görə, "quşçu" etnonimi kuş (quş) komponentindən və mənsubiyyət bildirən -çu şəkilçisindən (müqayisə edin – fars dilində -an şəkilçisi) ibarət olub, "Kuş (quş) tayfasına (elinə) mənsub olanlar" mənasını verir. İndi kuş (quş) etnoniminin sonuna -çu şəkilçisinin nəyə görə əlavə edilməsinin səbəbi aydınlaşır. Əgər kuş (quş) komponentinə -lu şəkilçisi əlavə edilsəydi, onda məhz Quşlu (Kuş (quş) tayfasına mənsub" mənasını yox, "quşu (ov quşu və ya başqa quş) olan, quş saxlayan" mənasını verərdi.

Deməli, kuşçu etnonimi Azərbaycana hazır vəziyyətdə gətirilmişdir, başqa sözlə, -çu şəkilçisi "kuş" (quş) komponentinə Azərbaycandan kənarda əlavə edilmişdir" [Qurbanov, 2019: s.176].

Elmira Əhmədova bu tayfa haqqında yazır: "Etnonim quşçu tayfasının adını əks etdirir. Quşçu etnonimi qazaxlarda "kuşi", başqırdlarda "kuşi" və "koşsı", türkmənlərdə "kuşi", qırğızlarda isə "kuşi" və başqa fonetik formalarda işlənir. Kuşu və yaxud quşçu etnoniminin mənşəyi indiyə qədər aydınlaşdırılmamışdır. Etnonimin sonunda duran "-çu" şəkilçisi başqa etnonimlərdə olduğu kimi (məsələn: Qazançı, Danaçı, Sabunçu)) mənsubiyyət bildirir" [Əhmədova, 2017: s.64].

Elşad Abışovun fikrincə, "gətirilən faktlar əsasında belə qənaətə gəlmək olar ki, quşçular Azərbaycana həm ilkin orta əsrlər dövründə, yəni 227-ci ildə, həm də XII əsrdə monqolların Şimali Qafqaza hücumu zamanı gəlmişlər.

Fikrimizcə, yuxarıda qeydə alınmış coğrafi adlar ilkin orta əsrlər dövründə və sonralar Azərbaycana gəlmiş quşi və quşçu tayfalarının adı ilə bağlıdır" [Abışov, 2012: s.67].

Zirəddin Xasıyev isə yazır: "Türkdilli tayfalardan ən cığalı quşçular olmuşdur. Bu tayfa haqq-nahaq, yerli-yersiz müharibələrdə iştirak etmiş, sabit yaşamamışdır. Ona görə də türk dünyasının əksər yerlərində bu tayfanın izlərini göstrəmək olar. Elə Azərbaycanın ən kiçik parçası olan Tovuzda üç kənd (Aşağı Quşçu, Dondar Quşçu, Quşçu Kirən) bu tayfanın adını daşıyır" [Xasıyev, 2011: s. 92].

Könül Səmədova Kuşi əsaslı areal etnotoponimlər haqqında öz fikrini belə əsaslandırır: "Azərbaycanda kuşi etnonim əsaslı etnotoponimlərin yayılma areallarına aşağıdakı bölgələr daxil edilir: Quba, Şamaxı, Ağdam, Qazax, Cəbrayıl, Şuşa, Qax, Daşkəsən" [Səmədova, 2008: s.73].

İbrahim Bayramov Qərbi Azərbaycan ərazisində türk mənşəli toponimləri qeyd edir: "Quşçu (İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənd; Quşçu körpüsü (Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Paşalı (Əzizbəyov, Vayk) rayonunda körpü; Quşçu dərəsi (İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda kənd; Quşçulu (Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indi Qafan rayonunda kənd; Quşçuqaya (Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Çəmbərək (Krasnoselo) rayonunda qışlaq" [Bayramov,2002: s.120-121].

Məhəmmədhəsən Vəlili tayfa ilə bağlı olaraq yazır ki, quşlar və ya quşanlar, yuş və ya yuti və yainki qədim tusunların övladı olub, Türküstanda, İranla həmhüdud bir məhəllədə yaşayırdılar. "Ona görə öz adlarını bu cür dəyişmiş halda farslardan əxz etmişlər. Digər tərəfdən ehtimal olar ki, quşan – bir ərazinin adıdır, zira bu sözü təhlil edərkən, iki parçadan ibarət olduğunu görürük ki, biri "quş", digəri də "an"dır. Birinci quş mənasında, ikincisi də məmləkət mənasında ola bilər. Ona görə "quşan"ı "Quşlar yurdu" mənasıda dəxi qəbul edə bilərik" [Vəlili, 1993: s.39].

Budaq Budaqov və Qiyasəddin Qeybullayev Gürcüstan ərazisində də Quşçu kəndinin olduğu barədə məlumat verirlər: "Tiflis quberniyasının Borçalı qəzasında kənd adıdır. Borçalı qəzasında Quşi adlı kənd də vardır (Erməni Quşi və Tatar Quşi). Qədim türkmənşəli Quşçu tayfasının adını əks etdirir. Azərbaycanda Aşağı Quşçu və Yuxarı Quşçu (Tovuz rayonu) kənd adları ilə eynidir. XIX əsrin ortalarında Tovuzçay kənarında 80 xırda məntəqəni əhatə edən Quşçu eli 257 ailədən ibarət idi" [Budaqov, Qeybullayev, 2008: s.232].

"Quşçu etnonimi ilə bağlı toponimlər erkən orta əsrlərdə meydana çıxmışdır. VII əsrə aid mənbələrdə sarmat tayfaları arasında quşilərin də adı çəkilir. XIII əsr məlumatına görə, Təkudar və Arqun xan tayfalarından idi. XIX əsrin sonu, XX əsrin əvvəllərində Qafqazda quş komponentli 38 toponim qeydə alınmışdır" [Əhmədova, 2017: s.64-65].

Quşçu tayfa adı əsasında əmələ gələn yer-yurd adları bunlardır: Quşçu yol ayrıcı (Laçın rayonu), Quşçunun yalı (Gədəbəy rayonu), Quşçu çayı (Daşkəsən

rayonu), Quşçu Ayrım kəndi (Qazax rayonu), Quşçu Goran (Xanlar rayonu), Quşçu Kovsan dağı (Laçın rayonu), Quşçu körpüsü qəsəbəsi (Daşkəsən rayonu), Quşçu kəndi və qəsəbəsi (Daşkəsən rayonu), Quşçular dağı (Xocavənd rayonu), Quşçu dağı (Şamaxı və Daşkəsən rayonları), Quşçu qalası dağı (Laçın rayonu), Quşçu kəndi (Laçın, Yevlax və Şamaxı rayonları), Quşçular kəndi (Goranboy rayonu); Qərbi Azərbaycan (indiki Ermənistan ərazisində Quşi (Quşçu) (İrəvan xanlığının Sürməli mahalında kənd), Quşi (İrəvan xanlığının Dərələyəz mahalında kənd), (İrəvan xanlığının Eçmiədzin qəzasında kənd); Quşidərəsi (İrəvan quberniyasının Novobayazid qəzasında kənd); Quşioğlu Məzrəsi (Rəvan əyalətinin Abaran nahiyəsində kənd); Quşçu (İrəvan əyalətinin Karbi nahiyəsində kənd), (İrəvan əyalətinin Məzrə nahiyəsində kənd); Quşi Məzrəsi (Rəvan əyalətinin Abaran nahiyəsində məzrə); Gürcüstan ərazisində Quşçu düzü (Salqa rayonunda düzən), Quşçular (Ağcaqala nahiyəsində Təkəli tayfasının qolu); Türkiyədə Quşçu əsaslı kəndlər Quşçu (Ankara, Elazığ, Ərzurum, Qaziantep, Kastamonu, Kaysəri, Mardin, Sivas, Tokat, Trabzon, Tuncəli, Van, Yozqat); Quşçuəli (Ankara); Quşçukənd (Elazığ); Quşçuquru (Siirt); Quşçular (Siirt, Ankara, Aydın, İçəl, İzmir, Kastamonu, Kayseri, Sinop, Girəsun); Quşçulu (Giresun, Ordu, Samsun, Qaziantep); Quşçumustafa (Qaziantep); Quşçuören (Ankara, Bilecik); Quşçusofulu (Adana). Deyilən fikirləri ümumiləşdirərək mikrotoponimi "Quşçular tayfasının adı ilə bağlı olan çay kimi" izah etmək olar.

**Arabaçılar məhləsi.** Bərdə rayonu ərazisindədir. Mikrotoponim tayfa adını bildirir. Etnonimdən əmələ gələn mikrotoponim sənət, peşə, məşğuliyyət bildirən söz əsasında yaranmışdır. Eyniadlı toponim Gədəbəy rayonunda da qeydə alınmışdır: "Gədəbəy rayonunun eyniadlı inzibati ərazi vahidində kənd Axınca çayının sağ sahilində, Murğuz silsiləsinin ətəyindədir. Yerli əhali tərəfindən Şınıx Arabaçısı da adlanır. XIX əsrin ortalarında indiki Çobankənd inzibati ərazi vahidindəki Arabaçı kəndindən köçüb gəlmiş ailələr (azanlı, bayramlı, kəlbayılar, cülüyü tirələri) tərəfindən salınmışdır. Gədəbəy rayonunun Çobankənd inzibati ərazi vahidində kənddir. Dağətəyi ərazidədir. Toponim oğuz tayfalarından salırların bir qolu olan arabaçılar tayfasının adını əks etdirir. Etnotoponimdir" [Lüğət, 2007: 41].

**Dəmirçilər kurqanı.** Tərtər rayonu ərazisindədir. Eyniadlı tayfa ilə bağlı olaraq yaranan mikrotoponimdir. Dəmirçi etonimi haqqında Elmira Əhmədova öz fikrini əsaslandırır: "Dəmirçi" etnoniminin Dəmir leksik vahidindən yaranması elmi cəhətdən özünü doğrultmur. Şəxs adları adətən, sənət, peşə mənasını bildirir. "-çu" şəkilçisini qəbul etmir. Əgər "dəmirçi" etnonimi Dəmir adı ilə bağlı olsa idi, onda ya Dəmirlər, ya da Dəmirli şəklində işlənərdi. Elə buna görə də "dəmirçi" etnonimi dəmirçilik sənəti ilə əlaqədardır. Bu tayfa dəmirçiliklə məşğul olduqlarına görə onlara bu ad verilmişdir. Konkret qrup, dəstə bildirir. Qazax rayonunda olan Dəmirçilər etnonimi şahsevən tayfalarından olan "dəmirçilərlə" bağlıdır" [Əhmədova, 2007, 28-29]. Bilindiyi kimi, mikrotoponimlərin yaranmasında müxtəlif sözlərdən istifadə olunur. Əsas etibarilə çoxluq antroponim və etnonim mənşəli sözlər olur. Sənət, peşə, məşğuliyyət bildirən sözlərdən yaranan onimlər etnonimləri

formalaşdırır, daha sonra yer-yurd adları əmələ gətirir. Bu etnonimlərə aid etmək olar: dəmirçi, dəmirçili, dəmirçilər.

Qara Məşədiyev sintaktik yolla düzələn toponimlər arasında sənət, peşə, məşğuliyyətlə bağlı olan sözlərdən Qaradəmirçi kənd adını qeyd edir: “Belə adlardan Qaradəmirçi (Bərdə rayonu) və Kolayır (Bərdə rayonu) adlarını göstərmək olar. Qaradəmirçi adından da göründüyü kimi, burada sənət və peşə məzmunun ifadəsi daha qabarıq şəkildə özünü göstərir” [Məşədiyev, 2010, s.131].

Ağamusa Axundov hesab edir ki, istər Dəmirçi, istərsə də Dəmirçilər toponimləri, ehtimal ki, türkdilli dəmirçilər tayfasının adından yaranmışdır. XIII əsr tarixçisi Şəhabəddin Nəsəvi onların Çingiz xanın nəslindən olduğunu göstərmişdir. XIX əsrdə yaşamış M.M.Xəzaniyə görə, onlar Azərbaycana Qarabağ xanlığının ilk xanı olan Pənahəli xan Cavanşirin dövründə gəlmişlər (XVIII əsr)” [Axundov, 2012, s. 383].

Fikrət Xalıqov dəmirçi tayfası haqqında qeyd edir: “Dəmirçilərin böyük bir nəsil olması və onların əsas məşğuliyyət növünün etnik ad kimi qəbul olunması tarixi həqiqətdir. Bu baxımdan arabaçılar, quşçular tayfaları da eyni üsulla ad almış etnik qruplardır. Milli onomastik vahid kimi şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında təsadüf olunan sözdür: Dəmirçioğlu (K) və s” [Xalıqov, 2001, s.111]. Fikirdən aydın olur ki, etnonimin yaranması qədim zamanlara söykənir.

Pərviz İsmayılov yazır: “Kəlbəcər rayonunun toponimikasında sənət peşə adları ilə düzəlmiş onomastik vahidlərdən ikisinin tərkibində metal adları işlənir: Qalayçı binə, Dəmirçidam, Qalay və dəmir metal adları həm də müasir kimya terminologiyasında yer almışdır. Hər iki sənət sahəsi uzaq keçmişdən Azərbaycan ərazisində yayılmışdır. Toponimlərdə sənət sahəsinin adının işlənməsi yaşayış məskənində qeyd edilən sənətlə məşğul olanların yaşamasını göstərir” [İsmayılov, 2011, s.44].

Respublikamız ərazisində Dəmirçi kəndi (Sədərək və Şamaxı rayonu), Dəmirçi vulkanı (Şamaxı rayonu), Dəmirçiçay (Şamaxı rayonu), Dəmirçidam (Kəlbəcər rayonu), Dəmirçidərəsi (Yardımlı rayonu), Dəmirçilər kəndi (Xocalı, Qazax, Qubadlı, Tərtər rayonları), Dəmirçitəpə (Quba rayonu), Birinci Qaradəmirçi (Bərdə rayonu), İkinci Qaradəmirçi (Bərdə rayonu); Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Dəmirçi kəndi (İrəvan xanlığının Zəngibasar mahalında; 1728-ci ildə İrəvan əyalətinin Karbi nahiyəsində kənd); Dəmirçilər (İrəvan quberniyasının Şərur Dərələyəz qəzasında kənd; Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda kənd); Dəmirçili (1590-cı ildə Rəvan əyalətinin İrəvan qəzasında kənd); Gürcüstan ərazisində Dəmirçi (Qaqra rayonunda kənd) qeydə alınmışdır. Fikirlərə istinadən deyə bilərik ki, mikrotoponim dəmirçi tayfasının adı əsasında yaranmışdır. Əvvəl makrotoponim kimi işlənmiş daha sonra mikrotoponimə çevrilmişdir. Yer adını “dəmirçi tayfasının adı ilə bağlı olan kurqan” kimi izah etmək olar.

Toponimikada Qarabağ bölgəsinin mikrotoponimlər sistemində peşə, sənət, məşğuliyyət bildirən leksik vahidlərdən əmələ gələn mikrotoponimlərin xüsusi rolu

vardır. Belə leksik vahidlər xalqımızın keçdiyi tarixi inkişaf yolunun aşkar olunmasında mühüm rola malikdir. Ona görə də onların arasında arxaik hesab olunan sözlər də qeydə alınır. Xalqımızın maddi mədəniyyətinin də daşıyıcısı olan mikrotoponimlər əhalinin kənd təsərrüfatı (əkinçilik, maldarlıq və quşçuluq) fəaliyyətinin nəticəsi kimi yaranır. Tədqiqata cəlb olunan bölgənin iqtisadiyyatının əsasını əkinçilik və maldarlıq təşkil edir. Ona görə də bu sahələrlə də bağlı olaraq əmələ gələn leksik vahidlərə çox rast gəlinir. Qarabağ bölgəsinin sənət, peşə, məşğuliyyət bildirən leksik vahidlərdən əmələ gələn mikrotoponimləri indiyə qədər ətraflı şəkildə təhlil olunmamışdır. Bu sahədə müəyyən qədər araşdırmalar olsa da həllini gözləyən problemlər hələ də mövcuddur. Xüsusilə Qarabağ bölgəsinin mikrotoponimlərini toplayaraq sistem halına salmaq, digər ərazilərdə mövcud olan el-oba adlarını da araşdırmaq dilçi alimlərimizin qarşısında əsas vəzifələrdən biridir.

**ƏDƏBİYYAT**


1. Abışov E. Laçın rayonu onomastik vahidlərinin linqvistik təhlili. Filologiya elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2006, 146 s.
2. Axundov A. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Elm və təhsil, 2012, 463 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, 304 s.
4. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm,2002, 346 s.
5. Budaqov B, Qeybullayev Q. Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti. Bakı: Nurlan, 2008, 310 s.
6. Əhmədova E. Azərbaycan etnonimləri (Leksik-semantik və struktur xüsusiyyətləri). Bakı, 2007, 128 s.
7. Əhmədova E. Azərbaycan dilinin etnonimlər lüğəti. Bakı: Elm və təhsil, 2007,103 s.
8. Əsgərov H. Azərbaycan dilində maddi mədəniyyət leksikası (peşə-sənətlə bağlı). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2008, 319 s.
9. Əzizxan Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 537 s.
10. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan.
11. Xalıqov F. Azərbaycan dilinin folklor onomastikası. Filologiya elmlər doktoru alimllik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2001, 143 s.
12. Xasıyev Z. Tovuzun toponimlər dünyası. Bakı: Nurlan, 2011, 211 s.
13. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan nəşriyyatı, 2008, 444 s.
14. İsmayılov P. Kəlbəcər rayonunun onomastik vahidlərinin linqvistik təhlili. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2011, 169 s.
15. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. II cild (2 cilddə). Bakı, 2019, 432 s.
16. Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında. Bakı, Elm və təhsil, 2010, 232 s.

17. Səmədova K. Qərbi Azərbaycan-indiki Ermənistan etnotoponimlərinin arealları. Bakı, Nurlan, 2008, 152 s.
18. Vəlili Məhəmmədhəsən. Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, Azərbaycan nəşriyyatı, 1993, 92 s.

## ABOUT THE MICROTOPONYMS OF THE KARABAKH REGION WHICH ARE MADE FROM LEXICAL UNITS DEFINING SOME ARTS, PROFESSIONS, OCCUPATIONS


### SUMMARY

The naming tradition, which is as old as the history of mankind, has been used to determine the names of villages and towns wherever it exists. The examination of toponyms, some of which are new and many of which have a history of a hundred or even a thousand years, is extremely important. Since a nation's toponyms live in a narrow region, the determination of microtoponyms that have been passed down from generation to generation by word of mouth is more useful in naming macrotoponyms that are open to external influences. Unfortunately, difficulties have arisen due to the rapid disappearance of microtoponyms used for centuries, especially in the processes experienced in recent years, before and after the war. No one knows the microtoponyms of that region better than people who were born in any village and never left that place throughout their lives. The inclusion of microtoponyms, which consist of lexical units expressing art, profession, and occupation, in the research provides information about the history, culture, worldview, daily life, forgotten traditions, etc. of our people, and is formed as a result of the development of society in connection with socio-political and socio-economic processes. They are not local. They serve to guide professional interests. In other words, the word that shows the area of interest, character and type of people, tribe, generation, line, ethnic group is taken as the main sign and becomes relevant in their speech. In other words, it plays a big role in determining ethnic perspectives. Some of these names are considered archaic in the vocabulary of our language. Such microtoponyms have been analyzed very little in our linguistics. In the article, microtoponyms consisting of lexical units expressing art, profession, occupation (Arabaçılar neighborhood, Demirciler mound, İlkhiçi gobüsü, Guşçular river) were systematically examined from a linguistic perspective and it was aimed to determine their roles in the lexical system.


**Key words**: *Qarabakh, region, art, pursuit, pastime, microtoponym*

# О МИКРОТОПОНИМАХ КАРАБАХСКОГО РЕГИОНА, СОСТАВЛЯЮЩИХСЯ ИЗ ЛЕКСИЧЕСКИХ ЕДИНИЦ, ОПРЕДЕЛЯЮЩИХ НЕКОТОРЫЕ ИСКУССТВА, ПРОФЕССИИ, ЗАНЯТИЯ

## РЕЗЮМЕ

Традиция именования, которая стара, как история человечества, использовалась для определения названий деревень и городов, где бы они ни существовали. Чрезвычайно важно изучать топонимы, некоторые из которых являются новыми, а многие имеют сто и даже тысячелетнюю историю. Поскольку топонимы народа обитают в узком регионе, выявление микротопонимов, передающихся из уст в уста и из поколения в поколение, более полезно при наименовании макротопонимов, открытых внешним воздействиям. К сожалению, трудности возникли из-за быстрого исчезновения микротопонимов, использовавшихся на протяжении веков, особенно в последние годы, до и после войны. Никто не знает микротопонимы этого региона лучше, чем люди, родившиеся в каком-либо селе и ни разу в жизни не покинувшие его. Включение в исследование микротопонимов, состоящих из лексических единиц, выражающих ремесло искусство, профессию, профессию, позволяет раскрыть историю, культуру, мировоззрение, повседневную жизнь, забытые традиции нашего народа и т. д. Он дает информацию о развитии общества в связи с общественно-политическими и социально-экономическими процессами. Они не местные. Он служит для направления профессиональных интересов. То есть слово, обозначающее сферу интересов, характер и тип народа, племени, поколения, линии, этноса, принимается за основной признак и становится актуальным в их речи. Таким образом, это играет большую роль в определении этнических перспектив. Некоторые из этих названий считаются архаичными в лексике нашего языка. Подобные микротопонимы мало анализируются в нашем языкознании. В статье микротопонимы, состоящие из лексических единиц, выражающих искусство, профессию и род занятий (район Арабачилар, курган Демирджилер, Ильхичи гёбюсу, река Гушчулар), были систематически рассмотрены с лингвистической точки зрения и направлены на определение их роли в лексической системе.

**Ключевые слова**: *Карабах, регион, искусство, занятие, времяпрепровождение, микротопоним.*